

**Hər bir xalqın mədəniyyəti onun böyüklüyünün, müdrikliyinin, birliyinin təcəssümüdür. Azərbaycan xalqı qədim tarixə və mədəniyyətə malik bir xalq kimi artıq bütün dünyada tanınmışdır. Mədəniyyət geniş anlamdır və digər sahələrlə yanaşı bura elm, fəlsəfə, musiqi, rəssamlıq, memarlıq, tarixi abidələr və s. daxildir. Tarixin inkişafına öz təsirini göstərib, əhəmiyyətli rol oynayan mədəniyyət onu var edib inkişaf etdirənlərdən bilavasitə asılıdır.**

# AZƏRBAYCANIN MƏNƏVİ MƏDƏNİYYƏTİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Azərbaycan qədim, zəngin və unikal mədəniyyətə malik bir diyardır. Xalqımız minilliklər ərzində saysız-hesabsız, gözəl, orijinal abidələr yaratmışdır. Bir çox müəlliflərin qeyd etdiyi kimi, Azərbaycan təbii muzeydir. Ulu babalarımızdan bizə miras qalmış bu gözəlliyi, tarix və mədəniyyət abidələrini qorumaq üçün Azərbaycanın təhlükəsizliyi əsas şərtdir.**

Azərbaycan mədəniyyətinin yaranması və mənəvi rolunun yüksək dəyərləndirilməsində tarix boyu bir çox şəxsiyyətlərin bəhrəsi olmuşdur. Belələrindən biri də müasirimiz olmuş Heydər Əliyevdir.

Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında və onun zəngin mənəvi-mədəni irsinin dünya mədəni aləminə çatdırılmasında onun vətəndaşı və prezidenti Heydər Əliyev çox böyük rol oynamışdır və bu fəaliyyət respublikanın gələcək mənəvi- siyasi həyatı üçün örnək və irsə münasibətdə siyasətin konsepsiyasının yaranması baxımından mühüm əhəmiyyətə malikdir.

Həm dövlətin başçısı, həm də vətənpərvər bir insan kimi H.Əliyevin milli mədəniyyətə, mənəvi irsə göstərdiyi hörmət, verdiyi dəyər onun toxunduğu hər bir sahədə özünü göstərmişdir. O, hətta siyasəti də böyük mədəniyyətlə, səriştə ilə aparmağın lazım olduğunu tövsiyə edirdi. Heydər Əliyev çıxışlarının birində deyir: «Dünyada yaşayan azərbaycanlılar öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətəni vardır» (1, s.198).

Dediklərinin yalnız sözdə qalmayıb, əməldə də gerçəkləşməsi, Azərbaycanın mənəvi irsini yaşatmaq üçün bir sıra tədbirlər həyata keçirmiş, əhəmiyyətli qərarlar vermişdir. H.Əliyev mədəni irsi yaşatmaqla bərabər müasir mədəniyyətin inkişafına da xüsusi diqqət yetirib. Onun qayğısı bir çox sahələrdə müsbət nəticəsini vermişdir ki, onlardan bəzilərini nəzərdən keçirək.

Musiqinin beşiyi İtaliya hesab edilsə də, Azərbaycanın musiqisi öz zənginliyinə görə öncül yerlərdə durur. Bu zənginliyi və bununla da Azərbaycan xalqının malik olduğu «xəzinəni» beynəlxalq səviyyədə göstərmək, dünya musiqisi sıralarında layiqli yerini tutması üçün musiqinin hər bir sahəsinin (istər muğam, istərsə də caz və s.) Heydər Əliyev eyni səviyyədə inkişaf etdirilməsinə böyük səy göstərmişdir. Eyni zamanda, H.Əliyev musiqinin inkişafında əhəmiyyətli rol oynayan insanların yaradıcılığına da çox böyük qiymət vermiş, bununla onların əməyini yüksək dəyərləndirmiş və musiqinin inkişafına təkan vermiş olurdu.

Bu qayğı özünü Ü. Hacıbəyov, Q. Qarayev, F.Əmirov, A.Zeynallı və s. kimi Azərbaycan musiqiçilərinin, korifeylərinin adlarının əbədiləşdirilməsi və onların daim xalqın yaddaşında qalması üçün atılan addımlarda göstərir. Musiqimizə, mədəniyyətimizə verdiyi yüksək qiymət və qayğı özünü həmçinin H.Əliyevin mədəniyyət işçilərinə münasibətində göstərirdi. Prezidentin səhnələşdirilmiş əsərin premyerasının tamaşasına getməyi və yaxud da teatrın truppasını qəbul etməyi, onlara yaradıcılıq uğurları arzulamağı, neçə-neçə bəstəkarın, rəssamın, respublikada görkəmli muğam ustalarının yaradıcılıq gecələrinin, yubileylərinin keçirilməsi yaradıcılığa bir təkandır. H.Əliyevin yaşlı nəslin yaradıcılığına böyük qayğı göstərməsi, gənc nəslin yaradıcılıq yollarının daha geniş açılmasına imkan yaratmışdır.

Hələ 70-ci illərdə H.Əliyev gəncləri himayə və xüsusi qayğı ilə əhatə edirdi. Məsələn, həmin dövrdə o, Fərhad Bədəlbəylinin istedadının gələcək nəsil üçün, Azərbaycan dövlətinin xaricdəki nüfuzu üçün nə qədər gərəkli olduğunu görüb belə demişdir: «Mən gördüm ki, belə bir istedad meydana çıxıb. Ona kömək etmək, irəli çəkmək, qayğı göstərmək lazımdır və onun yolu geniş açılsa, o, öz istedadını daha da parlaq göstərə biləcəkdir» (2, s.46). Bu çoxsaylı belə hadisələrdən yalnız biridir.

Xalqın hərtərəfli inkişafının, siyasi, iqtisadi, mədəni tərəqqisinin daimi məsələlərindən biri kimi H. Əliyev Azərbaycanın işıqlı gələcəyinin, gənc nəslin yaradıcı yetişməsində hərtərəfli qayğı göstərməyə şərait yaratmağa çalışırdı. Neçə-neçə uşaq ansamblları, rəqs kollektivlərinin yaradılmasına dövlət tərəfindən təkan, müsabiqələrin yüksək səviyyədə təşkili məhz H.Əliyevin böyük səyi nəticəsində baş tutmuşdur.

Eyni zamanda, digərlərinə də istedadların üzə çıxarılmasında himayə etməyi, onlara xüsusi qayğı və kömək göstərməyi tövsiyə etmişdir. Belə kollektivlər, istedadlar xarici ölkələrdə Azərbaycanı uğurla, müvəffəqiyyətlə təmsil edərək dövlətimizin adını, bayrağını ucaldırlar.

Öz dövrünün böyük mütəfəkkiri və ziyalısı olan H.Əliyev azərbaycançılıq fəlsəfəsinin ideyalarını nəinki Azərbaycan xalqı üçün sərf etmiş, hətta bu fəlsəfi fikirləri, düşüncələri bütün dünya azərbaycanlılarına da şamil edərək milli dövlətçiliyimizin ətrafında sıx birləşməyə, həmrəy olmağa zəmin yaratmışdır.

31 dekabr tarixinin «Dünya azərbaycanlılarının həmrəylik günü» kimi qeyd olunması haqqında qərarı da buna real və əvəzolunmaz bir addımdır. Məhz belə bir qərar dünyanın hər yerində yaşayan azərbaycanlıları bir bayraq altında birləşməyə, bütün sahələrdə bir-birinə dayaq, həmdərd olmağa çağırış olmuşdur. Həqiqətən elə problemlər vardır ki, onların həlli xaricdəki soydaşlarımızın münasibətindən, məsələyə müdaxilələrindən çox asılıdır.

2001-ci il noyabrın 21-də H.Əliyevin təşəbbüsü ilə dünya azərbaycanlılarının I qurultayı baş tutdu və buradakı başlıca məqsəd dünya azərbaycanlılarının respublikamızın siyasi və "mədəni həyatında sıx birləşmələri, milli birlik ideyasının inkişafında onların rolunun artması, xalqın problemlərinin həllində yaxından iştirak etmək üçün xaricdə Azərbaycan lobbisinin yaranması və genişlənməsi idi. («Kredo» Müstəqil ictimai-siyasi, publisistik

qəzet, 7 yanvar 2006-cı il).

Tarixdən də bizə məlum olduğu kimi Azərbaycan neçə əsrlərdir ki, müəyyən düşmənlər, mənfi qüvvələr tərəfindən zaman-zaman işğallara, parçalanmaya, departasiyalara, dəhşətli soyqırımlara məruz qalmışdır. Elə bu parçalanmaların, soyqırımların yaranması torpaqlarımızın zəbt edilməsi, sərhədlərimizin dönə-dönə məcburi şəkildə dəyişdirilməsi hüquqlarımızın tapdalanması, milli-mənəvi dəyərlərimizin, tarixi abidələrimizin tədricən məhv edilməsinə gətirib çıxarmışdır.

Belə hallar bu gün də davam edir. Məlum faktdır ki, münbit torpaqları, şəfalı, əhəmiyyətli dağ silsilələri ilə zəngin olan Qarabağ indi düşmən tapdağı altındadır. Zəbt edilmiş bu torpaqlarımızda xalqımızın keçmişini və bugününü əks etdirən nə qədər toponimlər, abidələr qalmışdır və bununla da milli mədəniyyətimizə, irsimizə çox böyük ziyan vurulmuşdur.

Heydər Əliyev bunu dərk edərək milli mədəniyyətimizi, xalqımızın qiymətli sərvətlərini qoruyub saxlamaq üçün bir çox əhəmiyyətli addımlar atmışdır. Hər bir işgüzar yaxud qeyri-rəsmi səfərləri zamanı H.Əliyev Azərbaycanın Qarabağ və ondan doğan digər problemləri ilə yanaşı, bu problemlərin Azərbaycan mədəniyyətinə vurduğu zərbədən, tarixi abidələrin talan olunmasından, müharibə şəraitinin mədəniyyətin inkişafına göstərdiyi mənfi təsirindən mütləq söz açmış və dəlil-sübutlar təqdim etmişdir.

O, torpaqlarımızın azad olunmasının, oradakı abidələrin yenidən bərpasının nə qədər vacib olduğunu dəfələrlə çıxışlarında ürək ağrısı ilə vurğulayırdı. «H.Əliyev öz ölkəsinin xilasını təkcə silahda yox, hərbi gücdə deyil, eyni zamanda torpaqda yaradılmış qədim və bənzərsiz mədəniyyəti xalqa qaytarmaqla, onun milli ruhunun dirçəldilməsində görürdü» (3, s.38).

H.Əliyev vətənini, elini-obasını çox istəyən, hörmət edən bir insan idi. Bu baxımdan onun ən böyük tövsiyəsi vətəndaşın torpağını qarış-qarış qorumaq, onun üzərindəki hər bir şeyin: bitkinin, hansısa bir tikilinin qorunması olmuşdur. O, çıxışlarının birində deyir: «Vətənini sevən hər bir azərbaycanlı gərək bir ağac əksin». Azərbaycan torpağı lap qədimdən də onu sevən, ona can yandıran insanlar yetişdirmişdir.

Təkcə Bakı şəhərində nə qədər gözəl, milli-memarlıq üslubunda tikilən binalar (abidələr-İ.X.) qalmışdır. Məsələn, Murtuza Muxtarovun tikdirdiyi «Səadət sarayı», Musa Nağıyevin tikdirdiyi neçə-neçə binalar bu gün də şəhərimizə yaraşıq verir. Məhz H.Əliyev belə nəcib insanların əməllərindən bəhrələnərək öz istedadını istiqamətləndirmişdir. Və canında, qanında yoğrulmuş bu milli hiss onu indiki və gələcək nəsil üçün örnək edir. O, hər axtarışında dönüb keçmişə baxıb, oradan yararlanmışdır. Bugünümüzün də bu səmtdə inkişaf etdirilməsinə kökləmişdir.

Bundan başqa xalqımızın görkəmli şair və mütəfəkkirlərinin, sənət adamlarının, elm sahəsində böyük nailiyyətlər əldə etmiş alimlərimizin əməyinə dəyərli qiymət vermişdir. Məsələn, küçələrin, yaşadıqları binaların üzərinə xatirə lövhələri vurulmaqla onların adlarının əbədiləşdirilməsi məhz H. Əliyevin səyləri nəticəsində baş tutmuşdur. Bundan başqa yubileylərin keçirilməsi, həm də Azərbaycandan kənarda keçirilməsi bir məqsəd kimi həmişə H.Əliyevin qarşısında duran əsas vəzifələrdən biri olmuşdur.

Dünya poeziyasının dahisi, böyük filosof Məhəmməd Füzulinin 500 illiyinə, «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinə həsr edilmiş dünyamiqyaslı yubileylərin və s. tədbirlərin keçirilməsi dediklərimizə real misaldır. Bütün türkdilli dövlətlərin görkəmli nümayəndələri elm, incəsənət xadimləri bu möhtəşəm tədbirlərin qonağı olmuşdur.

Azərbaycanın keçmişini, dünənini, bugününü və sabahını xalça üzərində özünəməxsus şəkildə əks etdirən Lətif Kərimovun, rənglərin dili ilə təbiəti insanlara dərk etdirən, sevdirən Səttar Bəhlulzadənin əməyini dərindən H.Əliyev qiymətləndirmişdir. S. Bəhlulzadənin anadan olmasının 85 illiyi ilə əlaqədar ölkəmizin muzeylərində, mədəniyyət ocaqlarında rəssamın əsərlərindən ibarət sərgilərin açılması və nümayişi birbaşa H.Əliyevin təşəbbüsü ilə olmuşdur.

Həmin sərgiləri həm də xarici ölkələrdə nümayiş etdirməyi, əsasən də Qərb ölkələrində Şərqin, daha doğrusu Azərbaycanın milli-mənəvi dəyərlərini dünyaya tanıtmağı, xaricdə yaşayan azərbaycanlı diasporaların bu ideyalarla daha yaxınlığının təzahürü kimi görürdü.

1982-ci ilin iyulunda muzey işçilərinin Respublika müşavirəsində H.Əliyev belə demişdir: «Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə də cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzlərinə çevrilir.

Muzeylər söz yox ki, hər bir vətəndaşın öz diyarının, rayonunun, kəndinin tarixinə bələd olması üçün də vacibdir (4, s.37). H.Əliyevin görkəmli yazıçıları, tarixçiləri, şair və mütəfəkkirləri ilə dünyada xüsusi yeri olan Azərbaycanın bu sahəsindəki çəkdiyi böyük zəhmətlərindən danışmamaq olmaz.

Belə ki, səhnəmizin «Vaqif»ini yaratmış S.Vurğunun adına ev muzeyinin, S.Vurğun adına bağın açılması, musiqimizin dahi korifeyi olan Ü.Hacıbəyovun, C.Cabbarlının, Bülbülün şəhərimizi bəzəyən böyük və yaraşıqlı ev-muzeylərinin açılması, onların adlarına ali və orta ixtisas musiqi məktəblərinin verilməsi və s. məhz H.Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir. Şəxsiyyətin böyüklüyünü, əzəmətini onun həyat fəaliyyətinin çox sahəli olması sübut edir.

**H.Əliyev deyir: «Ümumi çətinlik nə qədər çox olsa da biz elmə, təhsilə daim qayğı göstərməliyik» (5, s.185). Bu məqsədlə o, Azərbaycanın işıqlı gələcəyi naminə, dünya miqyasında tanınması və layiqli yerini tutması yolunda böyük səylər, gələcək nəsillər üçün doğru yol və istiqamətlər göstərmişdir.**

**Xanımağa İSMAYILOVA**

## Ədəbiyyat


1. Q.Əliyev «Heydər Əliyev və milli mentalitet fəlsəfəsi». Bakı, 2003. «Qismət».
2. N.Ələkbərova. «Heydər Əliyev və Azərbaycan incəsənəti». Bakı. «Elm» 2000.
3. «O, Şərqin yerdə doğan günəşi idi». Vəfa Mahmudova. Bakı. «2004. (R.Mehdiyev) «Vektor» Beynəlxalq elm mərkəzi.
4. «H.Əliyev və muzeylərimiz». Bakı 1999. «Şur» nəşriyyatı.
5. «H.Əliyev siyasi məktəbini öyrənirik. Bakı, 1997-ci il.
6. «Kredo» Müstəqil ictimai-siyasi, publisistik qəzet, 7 yanvar, 2006-cı il.


**Ролъ Г.Алиева в духовной културе Азербайджана**

**РЕЗЮМЕ**


В статъе рассматривается последовательная и целенаправления деятелъност Г.Алиева, связанная с духовной наследем народа, его ролъ в сохранении богатово духовно културно наследия и во всестороннем развитии културы.

В статъе анализируется позитивные резулътаты болъших забот, окозанных Г.Алиевым науке и искустtву и сыгравших ролъ в развитии културы народа


**H.Aliev's role in spiritual culture of Azerbaijan**

**SUMMARY**


In the paper is considered H.Alievs connected with spiritual inheritance of people the consecutive and purposeful activity. The author shows his invaluable role preservation of rich spiritually cultural inheritance and in an all-around development of culture is both in the rank of the head of the state, and during a presence outside of republic.

In the paper are analyzed positive results of the big cares rendered by H. Aliev to a science , and art and played resolute role in development of culture of people.